# Son hektarların taxılı biçilir

Qəbələ çoxsahəli kənd təsərrüfatı rayonudur. Taxılçılıq, heyvandarlıq, üzümçülük, meyvəçilik və tərəvəzçilik bu bölgənin iqtisadiyyatının həlledici sahələrdir. Son illər dövlət tərəfindən kənd əməkçilərinə edilən güzəştlərin, verilən subsidiyaların nəticəsidir ki, həmin sahələr sürətlə inkişaf edir, nəzərdə tutulandan çox kənd təsərrüfatı məhsulları tədarük olunur. Xüsusilə taxılçılarımız son illər məhsul istehsalında ölkə üzrə ən yaxşı yer tuturlar. Kənd təsərrüfatında əldə edilən naliyyətlər hər bir qəbələlini ürəkdən sevindirir. «Sarı kəhrəba» ustalarımız taxıl sahələrini ilbəil genişləndirir, məhsul istehsalını maksimum dərəcədə artırmaq üçün elmin qabaqcıl nailiyyətlərindən lazımınca istifadə edir, məhsuldar və keyfiyyətli toxum sortlarından istifadə edilməsinə üstünlük verirlər. Odur ki, təkcə ötən il taxılçılıqla məşğul olan fermerlər, torpaq sahibkarları rayon üzrə 70 min tona yaxın taxıl tədarük etmişlər. Bu qədər taxıl rayon üzrə birinci dəfə keçən il istehsal olmuşdur.

Sözsüz ki, taxıl əkin-biçini ilə məşğul olanlar bununla heç də arxayınlaşmamışlar. Onlar ötən ilin payız fəslində 23 min hektara yaxın sahədə cari iin məhsulu üçün arpa və buğda əkmişlər. Əgər əvvəlki illərlə müqayisə aparsaq, əkin sahələrinin keçən il xeyli artdığının şahidi olarıq. Əkin sahələrinin genişləndirilməsində Kürd, Bayramkoxalı, Əmirvan, Zalam, Məlikli və s. kəndlərin fermerləri, o cümlədən «Gilan» MMC-nin aqrar bölməsinin kollektivi mühüm rol oynayıb.

İndi onlar böyük zəhmət bahasına yetişdirdiikləri taxılın son hektarlarını biçirlər. Biçin kampaniyasına uğurlu startla başlayan taxılçılar arpa biçinini başa çatdırmışlar. Zəmilərin orta məhsuldarlığı 33 sentner olmuşdur.




Yığım texnikası zəmilərdə səmərəli işləyir. Hər gün zəmilərə 60 taxılbiçən kombayn çıxır. Texnika sarıdan hər hansı bir problem yoxdur. Yetişdirilmiş məhsulu tez və itkisiz yığmaq üçün havaların əlverişsiz keçməsi isə bir az yığımı ləngitmişdi. Buna baxmayaraq, hazırda 15 min hektardan çox buğda zəmisinin məhsulu yığılmışdı. Məhsuldarlıq da yüksəkdir. Hər hektardan 31 sentnerə yaxın məhsul hasil edilmişdir. Son məlumata əsasən rayon üzrə indiyədək zəmilərdən 67.681 ton taxıl yığılmışdır. Bu da yaxşı göstəricidir.

Bu il taxıl istehsalının artımında «Gilan», MMC-nin aqrar sektorunun kollektivi, «Həsrət» fermer təsərrüfatı, Nic qəsəbəsinin, Bayramkoxalı, Ziring, Kürd, Böyük Əmili, Əmirvan, Zalam, Hacıalılı kəndlərinin əməkçiləri yüksək nailiyyətlərin sahibi olmuşdur.

Zəmilərdən taxılın tez və itkisiz yığılmasında «Aqroservis» Qəbələ filialının mexanizatorlarının rolu və əməyi daha çoxdur. Filialın texnikası sahələrdə fasiləsiz işləyir və son hektarların taxılını biçirlər.

**Ramil QƏRİBOV,**
**rayon icra hakimiyyətinin sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi müdirinin müavini.**

*Ağdamın işğalından 23 il keçir*

# Ağdamlılar ümidlə yaşayırlar

23 ildir ki, Qarabağın dilbər güşəsi Ağdam rayonu erməni təcavuzkar qüvvələrinin tapdağı altındadır. 1993-cü ilin iyununda Erməni təcavüzkar qüvvələri ölkəmizdə yaranmış özbaşınalıqdan, hərc-mərclikdən, hakimiyyət uğrunda gedən çəkişmələrdən və siyasi böhrandan istifadə edərək Ağdam rayonunun Qarqar çayı yaxınlığındakı Şaybalı kəndini işğal etdi. Cəbhə yalnız yerli özünümüdafiə batalyonlarının ümidinə qalmışdı. Bundan istifadə edən düşmən sürətlə irəliləməyə başladı. Malıbəyli kəndində düşmənlə üzbəüz güclü döyuşlər gedirdi. Müdafiə batalyonlarının döyüşçüləri iyunun 22-23-də bütün günü və gecəni düşmənlə ədbəyaxa döyüşdülər. Lakin kömək gəlmədiyi üçün onlar geri çəkildilər. İyulun 23-də 43 gün düşmənə sinə gərmiş Ağdam şəhəri işğal olundu. Düşmən evlərə od vurur, mədəniyyət abidələrini, təhsil, səhiyyə ocaqlarını dağıdır, insanlara məxsus olan əmlakı talan edir, şəhəri tərk edə bilməyən dinc əhaliyə vəhşicəsinə divan tuturdu.

Ağdam rayonunun 1094 $km^2$-lik ərazisi hakimiyyət uğrunda gedən siyasi didişmələrin, təxribatların və xəyanətlərin qurbanı oldu. Amma ağdamlılar bütün dönəmlərdə dövlətə və dövlətçiliyə sədaqətli olublar. Ağdamlılar 23 ildən bəri davam edən məcburi köçkünlük illərində ağır şəraitdə yaşasalar da, irili-xırdalı problemlərlə üzləşsələr də öz dövlətinə və bu dövlətin görkəmli lideri İlham Əliyevə güvəniblər. Möhtərəm cənab Prezident İlham Əliyev doğma yurd-yuvalarından, rahat ev-eşiklərindən didərgin salınmış çoxsaylı məcburi köçkünlərin həyat səviyyəsini yüksəltmək, onların mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün dövlət səviyyəsində zəruri tədbirlər görmüşdü. Ölkə başçısının həyata keçirdiyi davamlı tədbirlərin nəticəsidir ki, son illər Ağdam rayonunun işğal altında olmayan ərazisi indi yeni şəhər və qəsəbələrə çevrilib. Rayon mərkəzinə çevrilmiş Quzanlı qəsəbəsi böyük həvəslə yenidən tikilərək müasir şəhərə çevrilmişdir. Burada Prezident İlham Əliyevin təşəbbüsçü ilə tikilmiş Avropa standartlarına cavab verən Olimpiya İdman kompleksi cəbhə bölgəsində yaşayan gənclərə böyük dövlət töhfəsidir. Burada xəstəxananın, inzibati binaların, vətən uğrunda canını qurban verənlərin xatirəsinə inşa edilmiş abidə kompleksinin, doğum evi və uşaq xəstəxanasının və sair zəruri obyektlərin tikilib istifadəyə verilməsi əhali tərəfindən razılıqla qarşılanır.

Bölgələrdə tikinti, abadlıq, quruculuq işləri geniş miqyas alsa da hər bir ağdamlının qəlbində heç vaxt silinməyən müqəddəs bir istək var. Bu, doğma torpaqlara qovuşmaq, düşmənlərimizin yerlə-yeksan etdiyi Ağdamı yenidən qurmaq istəyidir. Bu məqsədə çatmaq üçün hər kəs bacardığını edir, əlindən gələni əsirgəmir. Ağdamda uşaqdan böyüyə, qadından kişiyə qədər hər kəs silaha sarılıb. Qarabğın azadlığı uğruda müqəddəs və həlledici savaşa atılmaq üçün Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əmrinə müntəzirdir.

Sözsüz ki, gec-tez Dağlıq Qarabağ işğaldan azad olacaq.

**Aslan CƏLİLOV.**

# Ondan razılıq edirlər

Mübariz Məmmədov uzun illərdir ki, şəhərimizin Zərifə Əliyeva küçəsində Dəmiraparan çayının sağ sahilində məzar daşları hazırlayan sexdə işləyir. O, həm də daş üzərində yonma sahəsi üzrə də mütəxəssis kimi ad çıxarmışdır. Sex onun özünə məxsusdur. Bu sexdə hazırlanan abidə-məzar daşları olduqca keyfiyyətlidir. Mübariz sözün əsl mənasında yaradıcı sənətkardır. Dünyasını dəyişmiş insanların əzizləri bu daşları hazırlatmaqla özlərində təskinlik tapırlar. Abidə üzərindəki şəkil isə əbədi olaraq qalır. Buna görə hamı bu şəkillərin səliqəli və yaxşı alınmasını istəyir.

Mübariz Məmmədov məzar daşlarına vurulan şəkil üzərində elə ustalıqla işləyir ki, şəkil orijinaldakından gözəl alınır. Buna fitri istedad demək olar.

Bu gözəl, zərif işinə, ən əsası müştərilərlə mehriban, səmimi, mədəni rəftarına görə Mübarizə müraciət edənlər ondan razılıqla ayrılırlar.

Sənə uğurlar arzulayırıq, Mübariz!

**«Qəbələ».**

*Muzey xəbərləri*

## “Qəbələnin təbiəti” sərgisi

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində son günlər xüsusi bir canlanma var. Mütəmadi olaraq tamaşaçılarını qəbul edən muzeyimiz 2500 illik Alban tarixi ilə bərabər Qəbələnin zəngin flora və faunasını da əks etdirir. Bununla əlaqədar olaraq “Qəbələnin təbiəti” guşəsində geniş sərgi açılmışdır. Burada təbabətdə istifadə olunan bitkilər, maraqlı ağac növləri, təbiətin möcüzəsi olan müxtəlif formalı ağaclardan nümunələr sərgilənmişdir.

Hörük, çamadan formalı vələs ağacları, daşı dəlib keçən dağdağan ağacı, maraqlı ağac kimi saqqız ağaci və s. nümunələr də hər bir kəsin marağına səbəb olur. Oxatan kirpinin oxları, Qızıləhmədi almanın üzərində insan təsviri, Qəbələnin mineral daşları hər bir tamaşaçısını heyran qoymaqdadır.

## Gil qab nümunələri

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyası içərisində gil qab nümunələrinin sayı daha çoxdur. Bununla əlaqədar olaraq arxeoloji materiallar-gil qablardan ibarət geniş sərgi təşkil olunmuşdur. Bu nümunələrdən gil qazanlar, müxtəlif formalı su qabları, çılçıraqlar, boşqablar, müxtəlif formalı vazalar, küplər, bərnilər, bitkilərdən dərman hazırlamaq üçün istifadə olunan qablar və s. daha çox diqqət çəkməkdədir.

VIII əsrin nümunəsi olan şirlidamğalı qablar muzeyə gələn hər bir tamaşaçını valeh edir. Bu nümunələr VIII əsrdən XX əsrə qədər torpağın altında qalmasına baxmayaraq təbii rəngini itirməmişdir. Bu qablar içərsində xüsusi olaraq çılçıraqlar daha çox marağa səbəb olur. Əl çıraqları, stolüstü, asma çıraqlar XII əsrin dolğun, mükəmməl nümunəsi olmaqla bərabər arxeoloji material kimi ekspozisiyamızı bəzəməkdədir.

## Xarici turistlərin muzeyimiz haqqında söylədikləri

Son günlər muzeyimiz daha çox ziyarətçilərini qəbul etməkdədir. ABŞ, Koreya, Türkiyə, BƏƏ, Rusiya və s. ölkələrdən gələn turistlər muzeyimizin ekspozisiyası qarşısında heyranlıqlarını gizlədə bilmirlər. Onlar qədim Qəbələnin tarixi ilə tanış olduqdan sonra muzeyin xatirə kitabına təəssüratlarını qeyd edirlər. 2500 illik tarixi olan, qədim mənbələrdə adı iftixarla çəkilən Qafqaz Albaniyasının paytaxtı Qəbələni təsəvvür etdiklərindən də daha gözəl, zəngin, tarixi abidələrlə əhatələnmiş bir diyar olduğunu söyləyirlər. Bütün bu tarixi zənginliklərə son zamanların yüksək səviyyəli inkişafının daha bir gözəllik bəxş etdiyini vurğulayırlar.

Tarixi qədər təbiəti də zəngin olan Qəbələni hər zaman səyahət etmək arzusu ilə muzeyimizdən ayrılan ziyarətçilər beləcə xoş xatirələrlə yola düşürlər.

**İlhamə Seyidova,**
**muzeyin kiçik elmi işçisi.**